# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

№ 12 (2435) 4 aprel 2025-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# BALLICAYA QAYITMAQ ONLARA YENİ HƏYAT VERDİ



**Deyirlər ki, dünyada Vətəndən şirin şey yoxdur. Təbii ki, bu deyimdə böyük həqiqət var. Vətənin şirinliyini bəlkə də orada yaşayanda çoxları hiss etmir, bilmir. Vətəndən ayrılanda adamın başına hava gəlir və qürbət eldə günün cənnətə dönsə belə sənin üçün çox ağır və cansıxıcıdır. Ən azından ona görə ki, üstündə durduğun, gəzdiyin torpaq, havasını udduğun məkan sənin vətənin deyil, yəni bura yad bir eldir, qürbətdir, uzaq məkandır.**

Onu da deyirlər ki, dərdli dərdlini başa düşə bilər. Dərdi olmayanlar heç vaxt həmin adamı başa düşə bilməz. Vətənsiz insanları da ancaq Vətənini itirən adamlar anlaya bilər. Çünki onların dərdləri eynidir. Üzləri gülsə də ürəkləri, qəlbləri qan ağlayır və rahatlıq tapmır. Mənim özüm də Füzuli işğal olunanda doğmalarımın nələr keçirdiyini çox yaxşı bilirəm. Onlar uzun müddət bu ayrılığa dözməyi bacardılar. Bu mənada Xocalıdan, daha doğrusu, onun yaşayış sahələrindən biri olan Ballıcadan ayrı düşənlərin də kədərini və dərdini hiss etməmək mümkün deyildi.

Xocalı erməni faşistləri tərəfindən işğal olunanda onun yaşayış yerləri, qəsəbələri də ermənilərin əsarəti altına keçdi. Onlar Xocalının özündə olduğu kimi, kəndlərində və qəsəbələrində də çox böyük vəhşiliklər törətdilər, evləri-eşikləri yandırdılar. Əsir götürdükləri mülki əhaliyə - qadına, uşağa, qocaya heç kimə rəhm eləmədilər. Bir çox döyüşçülərimizi əsir götürəndən sonra ağaca bağlayıb üstünə benzin səpib od vurdular. Bu səhnəni isə həmin insanların doğmaları gözləri ilə görür, bəzilərinin vəhşiliyə ürəkləri tab gətirməyərək ürəyi partlayır, bəziləri isə huşunu itirirdi. Heç bu zülmü alman faşistləri Avropanı və SSRİ-ni işğal edəndə eləməmişdilər. Amma ermənilər elədilər. Nə qocaya rəhmləri gəldi, nə xəstəyə, nə də körpəyə. Vəhşilikləri ilə dünya tarixinə bir qanlı səhifə yazdılar. O qanlı səhifənin adı Xocalı oldu, Ballıca oldu və digər işğal olunmuş yerlərimiz oldu. Vəhşiləşmiş və it kimi qudurmuş ermənilər əsirlərimizlə də vəhşicəsinə davrandılar. Onları ya acından öldürdülər, ya döyməklə ağır xəsarət yetirdilər, ya da min bir əzab verdilər. Bu əzaba hər insan dözə bilməzdi. İnsanlıqdan və bəşəri dəyərlərdən məhrum olan erməni faşistləri bax, Xocalıda, Ballıcada belə qətllər törətdilər.



Ballıcalılar düz 32 ildən çox bu yerə, doğma yurdun ayrılığına çətinliklə də olsa dözməyi bacardılar, amma dözməyənlər də oldu. Xəstə, ürəyi zəif, doğma balasını itirmiş neçə-neçə Ballıca sakini bu dərdə dözməyib məcburi köçkünlük dövründə dünyasını dəyişdi. Düzdür, onlar nə vaxtsa Ballıcaya gələcəkləri günə inanırdılar. İnanırdılar ki, Allahın, Azərbaycan prezidenti İlham Əliyevin və Ordumuzun köməkliyi ilə bu torpaqlar azad olunacaq, onlar doğma yurda dönəcəklər.

İstər 44 günlük İkinci Qarabağ savaşında, istərsə də antiterror əməliyyatında ballıcalılar çox böyük sevincli anlar yaşadılar. Onların Vətənə qayıtma ümidləri daha da artdı. Və Azərbaycan prezidenti İlham Əliyevin böyük şücaəti və qəhrəmanlığı ilə işğaldan azad olunmuş bütün rayonlarımızda, eləcə də Xocalıda, Ballıcada yenidənqurma işlərinə başlanıldı. Bir neçə ilin içində həm Xocalıda, həm də Ballıcada yeni binalar, yaşayış evləri, sosial obyektlər, məktəblər, uşaq bağçaları inşa edildi. Bir sözlə, hər cür infrastruktur yaradıldı. Yəni burda insanların yaşaması, işləməsi üçün gözəl asfalt yollar çəkildi, işıq, qaz, su xətləri istismara verildi.

Bir neçə ay bundan əvvəl isə Ballıcaya ilk köç oldu. Və bu ilk köç ballıcalıların 32 illik həsrətinə son qoydu. Vətənə qayıtmaqdan, Vətənə dönməkdən, onun torpağının üstündə gəzməkdən, havasını udmaqdan, suyunu içməkdən gözəl heç nə ola bilməz. Bəli, onlarla sakin ailəsi ilə birlikdə doğma yurda qayıtdılar. Onların arasında Nəzirə Əhmədova da vardı. Nəzirə xanım deyir ki, bu gün həm kədərlənirəm, həm də sevinirəm. Ona görə kədərlənirəm ki, bu torpaqda doğmalarımız, əzizlərimiz şəhid oldu və Vətənə döndülər. Sevinirəm ki, indi biz ailəmizlə doğma kəndimizdəyik. Bununla yanaşı, şəhidlərimizin, əzizlərimizin də ruhu sevinir. Balaca qızım Lalə Xocalıdan 3 yaşında çıxmışdı. İndi kəndə qayıdanda qucaqlayıb torpağı öpür, Təkcə Lalə öpmür torpağı, mən də, yoldaşım Arif də, oğlum Rafiq də iməkləyə-iməkləyə torpağı qucaqladıq, bağrımıza basdıq, hönkür-hönkür ağladıq. Dedik ki, nə yaxşı, ölmədik, bu günü də gördük. Bizə bu anı nəsib edən prezident İlham Əliyevə və Ordumuza minnətdarıq. Şəhidlərimizə, qazilərimizə və qaliblərimizə alqışlar deyirik. Onların hər addımda, hər yerdə səsi, ruhu hiss olunur.

Vətənə qayıdanlar arasında Adil Məmmədov da var. Adil qardaşımız deyir ki, 32 il qərib yerdə yaşamaq elə də asan deyil. Nə yasımızın rahatlığı vardı, nə də toyumuzun sevinci. Rəhmətə gedənlərimizi dəfn edəndə elə onlarla birlikdə biz də ölürdük. Sözün açığı, bütün ümidlərim qırılmışdı. Heç Ballıcaya qayıtmağa ümidim belə yox idi. Amma tez-tez bu yerləri, bu gözəllikləri, bu məkanları yuxumda görürdüm. Yuxumda görürdüm ki, ermənilər evlərimizə od vurub yandırıb, qəbiristanlıqlarımızı dağıdıb, hündür-hündür çinar, palıd, qoz ağaclarımızı, hər cür bar verən meyvə ağaclarımızı qırıblar. Yuxudan qalxanda göz yaşları içində qalxırdım. Allaha and olsun, sən demə, Allahın möcüzəsi varmış. Sadəcə olaraq, mən bu möcüzəyə inanmırdım. Bu da mənim günahımdı, Allah istəsə insanın üzünə bütün bağlı qapıları aça bilər və bizə də belə bir sevinc, sevgi qismət elədi. Vətənimizə döndük, özümüzü yurd yerində daha xoşbəxt, daha rahat hiss etdik.

**Ballıcanın Vətənə qayıdan sakinlərindən kiminlə söhbət elədiksə hamısı bu xoşbəxt an üçün Allaha dua elədilər. Dedilər ki, onların çəkdiyi zülmü torpağından didərgin düşmüş bütün insanlar yaşayıblar. Amma bu qədər əzab-əziyyətdən, ayrılıqdan, ölüm-itimdən, kədərdən sonra yurda qayıtmağın, Vətənə dönməyin özgə bir gözəlliyi var. Bunun üçün biz hamımız Azərbaycan prezidenti İlham Əliyevə və əsgərlərimizə minnətdarıq. Onlar bizi bu Vətənə qaytarıblar. Ballıcaya qayıtmağımız bizə yeni bir həyat bəxş elədi. Allah bu həyatı bizə çox görməsin!**

**EMİL FAİQOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ